**Xalq qəzeti**. - 2023.- 4 mart. - № 49. - S. 13.

# Toxlucada törədilmiş erməni vəhşilikləri

**İbrahim Bayramov**,
ADPU-nun şöbə müdiri, professor

**Qərbi Azərbaycanda 1905–1906-cı, xüsusilə 1918–1920-ci illərdə azərbaycanlılara divan tutulanda, Göyçədə də qan su yerinə axıdılanda mahalın böyük və qədim kəndlərindən olan Toxluca da bu qırğından kənarda qalmamışdır. O zaman bu yerlərin azərbaycanlı əhalisinin hamısını qılıncdan keçirmək Andranikin və onun quldur dəstəsinin yeganə məqsədi olmuşdu.**

Əlimizdə olan mənbələrdən öyrəni-rik ki, daşnaklar azərbaycanlıları ellikcə qılıncdan keçirmiş, harda rast gəldilərsə vəhşicəsinə öldürmüşlər. Əllərinə keçən qadınları, uşaqları, qocaları bir yerə yı-ğıb quyulara doldurmuş, üstlərinə daş tökmüşlər. Həftələrlə həmin quyulardan insan naləsi eşidilirmiş ki, bundan da daş-naklar, onların başçıları həzz alırmışlar.

Bu hadisələrin canlı şahidi olmuş, 1936–1938-ci illərdə Dilicanda rəhbər vəzifədə işləmiş toxlucalı İdris Sadıqov söyləyirdi ki, 1918–1919-cu illər arasında ermənilər İcevandan (keçmiş adı Karvan-saray) hücuma keçdilər. Məqsədləri Çəm-bərək (Krasnoselo) rayonunda yaşayan azərbaycanlıları öldürmək, yandırmaq və onları öz dədə-baba torpaqlarından qov-maq idi.

Əlikörpəli, hamilə qadınlar, uşaqlar, qocalar öküz arabalarında Polad, Çay-kənd, Qaraqaya və Əmirxeyirdən keçib Toxlucaya cəm oldular. İstəkləri Ardanışa çatıb oradan da Şah dağını keçərək Azər-baycana qaçmaq idi. Lakin yollar, bərələr, gədiklər tam bağlanmışdı. İşin çətinliyini görən xalq qəhrəmanları – Topal Oruc və Məşədi Cığal elin igid oğullarından dəstə düzəltdi və onların köməyi ilə ermənilərin dişinə qədər silahlanmış qaniçən dəstələ-rini dağıtdılar. Camaata Şah dağından yol açdılar və onlar Azərbaycana keçə bildilər.

Xalqın bu ağır vəziyyətində xəbəri olan Gəncə qubernatoru 24 noyabr 1918-ci ildə vurduğu teleqramda bildirirdi: “Keç-miş Yeni Bayazid qəzasının Toxluca kəndi erməni döyüşçüləri tərəfindən bombarda-man edilmişdir”. Andranik və onun başçı-lıq etdiyi erməni quldur dəstələrinin Çəm-bərək rayonunun müsəlman kəndlərində (Gölkənd, Toxluca, Şorca, Ardanış və s.) törətdikləri vəhşiliklər 1918-1919-cu illərin mətbuat səhifələrində, dövlət sənədlə-rində öz əksini tapmışdır. Şorca kəndinə hücum erməni quldurlarından gizlənən, qaçmağa imkanı olmayanlar, hamilə qa-dınlar, eləcə də qocalar, əlillər, xəstələr yerindəcə güllələnir, min bir işgəncə ilə öl-dürülür, uşaqlar isə süngülərə taxılıb əl-əl gəzdirilirmiş.

Göyçə gölünün şimalında (Çəmbərək rayonunda) yerləşən müsəlman kənd-lərində Andranikin quldur dəstələrinin törətdikləri vəhşiliklər tarixi sənədlərdə belə əksini tapmışdır. Q.Muradyan adlı bir müəllif 1920-ci ildə ermənicə “Joğovurd” qəzetində Göyçə gölünün şimal sahillə-rində azərbaycanlı kəndlərinin dağıdıl-masında Ermənistan hökumətinin bandit fəaliyyətini təsvir edərək yazmışdı: “Hö-kumətin gördüyü tədbirlər nəticəsində... bu kəndlərin (Toxluca, Ağbulaq, Ardanış və b.) əhalisi Ermənistan sərhədlərini tərk etmişlər. Mən dağılmış kəndlər gördüm ki, orada bir neçə pişik və iki-üç it qalmış-dı. Onlar bu ölüm sükutuna təəccüblənir, qeyri-adi və qəribə səslə hürürdülər. Bu, kəndlərin əhalisi çox böyük kartof, buğda və arpa əkin sahələri qoyub getmişlər. Hö-kümətin imkanı vardır ki, bu kəndlərdən 2 milyon puddan çox taxıl və yarım milyon pud kartof götürsün”.

Bu ərazidə yaşayan azərbaycanlılar hər əziyyətə qatlaşaraq öz irz-namusla-rını qorumuş, dədə-baba torpaqlarını tərk etməmək üçün bütün imkanlardan istifadə etmişlər. Həmin hadisələr “Azərbaycan” qəzetinin 7 iyul 1919-cu il tarixli nömrə-sində də əksini tapmışdır: “Ermənistan Cümhuriyyətinin daxilində qalan Yeni Bayazid qəzasının Göyçə gölü, şərq, cə-nub, cənub-qərbində müsəlman kəndləri vaxtilə erməni təcavüzlərinin müqabilində müdafiədə bulunmuşdu. Sonra erməni cümhuriyyəti tərəfindən indiki hərbi nazi-ri general Saltıkovun komandası altında top, pulemyot dəstələri göndərib irzlərini təcavüzlərdən müdafiə edən müsəlman kəndlərini topa tutmuş, əhalisinin salamat qalanlarını yerlərindən qaçırmışlar”.

1918–1920-ci illərdə Toxluca kəndin-dən qovulanlar Ermənistanda sovet haki-miyyətinin qurulmasından istifadə edərək 1922-ci ildə öz doğma yurdlarına qayıda bilmişlər. Lakin Ermənistan dövlətinin azərbaycanlılara qarşı yeritdiyi ayrı-seç-kilik siyasəti XX əsrin 30–80-ci illərində də davam etmiş, soydaşlarımız fiziki və mədəni soyqırımına məruz qalmışlar. Bu da azərbaycanlıların yaşadığı kəndlərin, o cümlədən, Toxlucanın sosial-mədəni inkişafına həmişə çox pis təsir göstər-miş, azərbaycanlı sakinlərin konstitusiya hüquqları nəzərə alınmamış, tapdalan-mışdır.

Bircə faktı deyim ki, XX əsrin 80-ci il-lərində Ermənistan hökumətinin qərarı ilə Səhiyyə Nazirliyi bilərəkdən xəstəxanaları mərkəzləşdirmək bəhanəsilə azərbaycan-lıların yaşadıqları kəndlərdə səhiyyə

ocaq-larını bağlamışdır. Burada iki çirkin məqsəd güdülürdü; azərbaycanlıları mənəvi cəhət-dən əzmək, dədə-baba torpaqlarından qovmaq və azərbaycanlıların xeyrinə olan demoqrafik dəyişikliyin qarşısını almaq.

Bundan sonra uşaq ölümlərinin sayı artdı. 1981-ci ildə toxlucada doğulan 114 uşaqdan 30-u bir yaşına çatmamış, 34-ü bir yaşından sonra, 1982-ci ildə doğulan 91 uşaqdan müvafiq surətdə 39-u və 24-ü, 1983-cü ildə doğulan 107 uşaqdan 29 və 52-si, 1984-cü ildə doğulan 94 uşaq-dan 31 və 32-si, 1985-ci ildə doğulan 104 uşaqdan 34 və 31-i ölmüşdür.

Çəmbərək (Krasnoselo) rayonundakı azərbaycanlılar 1988-ci ilin mart–dekabr aylarında ermənilərin mühasirəsi şəraitin-də yaşamışlar. İrəvanla, eləcə də Ermə-nistanın digər şəhərləri ilə əlaqə saxla-maq nəinki çətin idi, hətta gedib gəlmək mümkün deyildi. Rayonda hadisələrin ən zirvə nöqtəsi 1988-ci ilin noyabrın 24-də oldu. O gün Krasnoselo RPK-nın XXXI konfransı keçirilirdi. Toxluca kənd orta məktəbinin direktoru olduğum üçün həmin konfransda mən də iştirak edirdim. Bütün hadisələr gözlərimin önündə baş verirdi.

1988-ci il 24 noyabr səhər saat 10:00-da başlanan konfrans 25 noyabr səhər saat 4:00-da yekunlaşdı. 18 saat davam edən bu konfrans qarşısına bir məqsəd qoymuşdu: azərbaycanlıları mütləq ra-yondan qovmaq. Konfransda iştirak edən Ermənistan KP MK-nın təbliğat-təşviqat şöbəsinin müdiri Asatryan tribunadan açıq-aşkar bəyan etdi: “Ermənistan ermə-nilərindir. Burada yalnız ermənilər yaşa-malıdır. DQMV-ni Ermənistana birləşdir-mək isə xalqımızın əsas məqsədidir”.

Bu konfransdan sonra 1988-ci ilin noyabr ayının 25-dən silahlı erməni qul-durları azərbaycanlı kəndlərinə hücum-lara başladılar. Rayondakı azərbaycan-lılar, həmçinin Toxluca kəndinin sakinləri var-dövlətini, ev-eşiyini, mal-qarasını atıb dan üzü saat 3-də qışın şaxtalı, qarlı-bo-ranlı günündə dağlardan, dərələrdən keçib Azərbaycana gəldilər. Beləliklə, Toxluca kəndinin sakinləri də digər Qərbi azərbaycanlılar kimi tarixi-etnik torpaqla-rından deportasiya olundular. Dünya isə bu ədalətsizliyə, haqsızlığa, Qərbi azər-baycanlıların tarixi faciəsinə növbəti dəfə göz yumdu...